# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

25 aprel 2019-cu il
Cümə axşamı

№ 15 (3430)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV BAKININ QARAÇUXUR QƏSƏBƏSİNDƏ YENİDƏN QURULAN NEFTÇİLƏR PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdilər.

Qeyd edildi ki, bu istirahət parkı 1982-ci ildə salınıb. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ötən ilin martından parkda yenidənqurma işlərinə başlanılıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilib.

Dövlətimizin başçısı və birinci xanım burada istirahət edən sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova ilə görüşüb söhbət etdilər.

*****

Bu il fevralın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və iştirakı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə parkın ərazisində 613, bu il aprelin 6-da isə Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi şərəfinə daha 300 ağac əkilib.

Parkın ərazisində neft buruğunun rəmzi olaraq stela quraşdırılıb, yaşıllıqlar salınıb, 2 min yeni ağac əkilib, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Cavanşir Rəhimovun 1999-cu ildə quraşdırılmış büstü bərpa edilib, büstün ətraf ərazisi yenidən qurulub, "Veteranlar guşəsi" və iaşə obyektləri yenilənib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Qəhrəman Cavanşir Rəhimovun abidəsini ziyarət etdilər.

Sonra dövlətimizin başçısı və xanımı parkda istirahət edən digər sakinlərlə görüşüb söhbət etdilər.

*****

Əhalisinin sayı 89 min nəfər olan Qaraçuxur Suraxanı rayonunun qədim qəsəbələrindən biridir. Bu parkın müasir səviyyədə yenidən qurulması qəsəbə sakinləri ilə yanaşı, paytaxtımıza gələn qonaqların da asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanlar açır. Ümumilikdə, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızın inkişaf tempinə uyğun olaraq yeni park, istirahət məkanları salınır, mövcudları isə müasir səviyyədə yenidən qurulur. Bütün bu işlər bir daha göstərir ki, paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək istiqamətində həyata keçirilən layihələr ardıcıl xarakter almaqla yüksək keyfiyyətlə icra olunur.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması sakinlərin və şəhərimizin qonaqlarının rahatlığının təmin edilməsində, onların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır.

Paytaxtda yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması geniş vüsət alıb. Suraxanı rayonunun ərazisində yenidən qurulan bu istirahət məkanı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

## PREZİDENT İLHAM ƏLİYEV MƏRDƏKAN-QALA AVTOMOBİL YOLUNUN AÇILIŞINDA İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyev əvvəlcə sakinlərlə görüşüb.

Sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov Buzovna-Mərdəkan-Qala avtomobil yolu layihəsi çərçivəsində görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Bildirilib ki, dövlətimizin başçısının 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilən "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Xəzər rayonunda Buzovna-Mərdəkan-Qala avtomobil yolu layihəsinin həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Bu yol layihəsinin uzunluğu 7,6 kilometr olan Buzovna-Mərdəkan hissəsinin tikintisi başa çatdırılaraq, 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi olub və əhalinin istifadəsinə verilib. Bu bölgədə yaşayan əhalinin çoxsaylı müraciəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin ötən ilin yanvarında və fevralında imzaladığı sərəncamlarla təsdiq edilən 2018-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı 55 min nəfərin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna-Mərdəkan-Qala avtomobil yolunun 5,4 kilometrlik Mərdəkan-Qala hissəsinin tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. 2018-ci ildə layihənin tikintisi yekunlaşan hissəsi ilə Qala qəsəbəsi arasında yeni nəqliyyat bağlantısı yaratmaq, həmçinin nəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə Mərdəkan-Qala hissəsində 5,2 kilometr uzunluğunda yolun tikintisi aparılıb. Bu yolun 400 metrlik hissəsinin eni 18 metr olmaqla 1-ci texniki dərəcəlidir, yəni 4 hərəkət zolaqlı, digər hissənin eni isə 9 metr olmaqla 2-ci texniki dərəcəyə aiddir, yəni 2 hərəkət zolaqlıdır.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

Sonda xatirə şəkli çəkdirilib.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlib.***

***Pekin şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

***Prezident İlham Əliyevi Çinin xarici işlər nazirinin müavini Zang Hanhui və digər rəsmi şəxslər qarşıladılar.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "CETC International" Korporasiyasının baş direktoru Vu Mançin və "ZTE" Korporasiyasının sədri Li Cisue ilə görüşüb.***

***Dünən Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.***

*Ətraflı gələn sayımızda.*

**Ölkəmizin rəhbəri İlham Əliyev aprelin 18-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1544-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı İlham Əliyev aprelin 18-də Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 18-də Azərbaycan Prezidenti İlham Əliyev V.Ə.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri İlham Əliyev aprelin 18-də M.M.Xəlilovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 18-də Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı İlham Əliyev aprelin 18-də "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1543-VQD nömrəli Qanununun tətbiqi və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 259 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 18-də İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri İlham Əliyev aprelin 18-də Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə fərman imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 19-da Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.***

## KİRAYƏDƏ YAŞAYANLARA PUL KOMPENSASİYASI ARTIRILDI

Nazirlər Kabineti "Daxili işlər orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan daxili işlər orqanları əməkdaşlarına və onların ailə üzvlərinə xidmət keçdiyi dövr ərzində kirayəyə götürülmüş yaşayış sahəsindən istifadə haqqı (kirayə haqqı) üçün yaşayış məntəqəsindən asılı olaraq, pul kompensasiyasının məbləği və verilməsi Qaydası"nda, "Hərbi qulluqçulara (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin ailəli kursantlarına) müvəqqəti mənzilin kirayəsi üçün pul kompensasiyası məbləğinin müəyyən edilməsi haqqında", "Prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"nda, "Ehtiyata və ya istefaya buraxılmış vətəndaşların bəzi kateqoriyalarına müvəqqəti mənzil kirayəsi xərclərinin məbləğinin və ödənilməsi qaydasının müəyyən edilməsi barədə" qərarında və "Miqrasiya orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan miqrasiya orqanlarının işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği və ödənilməsi Qaydası"nda dəyişiklik edib.

Dəyişikliklə bağlı sənədi Baş Nazir Novruz Məmmədov imzalayıb.

Dəyişikliklə daxili işlər orqanlarında (Daxili İşlər Nazirliyinin Daxili Qoşunları istisna olmaqla) xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan daxili işlər orqanları əməkdaşlarına və onların ailə üzvlərinə xidmət keçdiyi dövr ərzində kirayəyə götürülmüş yaşayış sahəsindən istifadə haqqı (kirayə haqqı) üçün yaşayış məntəqələrindən asılı olaraq verilən kompensasiyası Bakıda 47 manatdan 150 manata, başqa şəhər və rayon mərkəzlərində 33 manatdan 75 manata, digər yaşayış məntəqələrində 27 manatdan 55 manata çatdırılıb.

Bu məbləğ Gəncə, Naxçıvan, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunda isə 100 manat müəyyən edilib.

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Aprelin 19-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Aidiyyatı baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumən, 433 iddiaçının arasından daha hazırlıqlı olan 372 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının vətəndaşların intellektual səviyyəsindən, xüsusən yüksək texnologiyalara, innovasiyalara yiyələnmiş, mükəmməl təhsil almış savadlı, milli-mənəvi dəyərlərin daşıyıcısı olan vətənpərvər, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladan nazir R.Usubov belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün hər zaman əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. O, hazırkı seçimlərin də göstərilən sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu bildirib.



Cənab Ramil Usubov bu gün ölkədə uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, əmin-amanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini qeyd edib.

Daxili İşlər naziri vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, son illər ölkədə müşahidə edilən dinamik inkişafın təməlində xalq-iqtidar birliyinin, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq-mühafizə siyasətinin, ictimai-siyasi sabitliyin dayandığını, bu istiqamətdə qazanılmış müsbət nəticələrin xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xatırladıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab verməlerini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

*19 aprel 2019-cu il.*

# DİN-in MƏTBUAT XİDMƏTİNDƏN

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov aprelin 20-də Quba Rayon Polis Şöbəsində qəbul keçirib.

Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından müraciət edən 15 nəfəri qəbul edən nazirin 1-ci müavini onların polisin fəaliyyəti ilə bağlı olan müraciətlərini dinləyib, problemlərinin qanunvericiliyə uyğun və operativ şəkildə həlli üçün konkret tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

*20 aprel 2019-cu il.*

# HESABAT VERDİLƏR

**Aprelin 22-də Bakı Şəhər Baş Polis İdarəsində bu ilin I rübündə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib.**

**Müşaviranı açan Bakı Şəhər BPİ-nin rəisi, polis general-mayoru Mirqafar Seyidov rüb ərzində paytaxtın polis orqan və hissələri tərəfindən həyata keçirilən tədbirlərin nəticələri və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış etmək üçün sözü baş idarə rəisinin əməliyyat işi üzrə müavini, polis general-mayoru Elxan Həsənova verib.**





Qeyd olunub ki, bu ilin 3 ayı ərzində paytaxtda Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə 3.050 cinayət qeydə alınıb. Onların 89,1 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 10,9 faizi ağır və xüsusilə ağır növlər olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələr 20 faiz, ehtiyatsızlıqdan adam öldürmələr 7 fakt, dövlət və ya bələdiyyə əmlakı oğurluqları 46,3 faiz, cibgirlik 32 faiz, dələduzluqlar 26,3 faiz, quldurluqlar 21,1 faiz, ölümlə nəticələnən yol nəqliyyat hadisələrinin sayı isə 25 faiz azalıb.

Diqqətə çatdırılıb ki, cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olub. Baş idarənin və ərazi polis orqanlarının “Təhlükəsiz şəhər” xidmətinin operatorları tərəfindən 1384 hadisə aşkarlanıb, kameraların arxiv görüntülərindən istifadə edilməklə 67 bağlı cinayət açılıb. Bununla yanaşı, 7 soyğunçuluq və quldurluq cinayəti törətmiş 12 nəfərdən ibarət 7 qrup, eləcə də 25 mənzil oğurluğu törətmiş 29 nəfərdən ibarət 14 cinayətkar qrup ifşa olunub.

Narkotiklərlə bağlı aşkar edilmiş 321 fakt üzrə qanunsuz dövriyyədən 183 kiloqramdan çox narkotik vasitə çıxarılıb.

O da diqqətə çatdırılıb ki, paytaxt ərazisində baş vermiş 116 yol-nəqliyyat hadisəsində 33 nəfər həlak olub, 107 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 14,1 faiz, ölənlərin sayı 36,5 faiz, xəsarət alanların sayı isə 0,9 faiz azalıb.

Yol hərəkətinə nəzarət prosesində



173.467, o cümlədən sürət rejiminə əməl olunmaması ilə bağlı 85.145, ötmə və manevr qaydalarının pozulması ilə əlaqədar 9.569 nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə olunması ilə bağlı 566 inzibati xəta aşkar edilib.

Əməliyyat müşavirəsinə yekun vuran baş idarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov hesabat dövrü ərzində şəxsi heyətin xidməti, peşə və fiziki hazırlığının, maddi-texniki təminatının qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verdiyini, müxtəlif hüquqpozmaların, o cümlədən insan hüquq və azadlıqlarının pozulması hallarının əvvəlki dövrlə müqayisədə xeyli azaldığını qeyd edib.

O, müşavirə iştirakçılarının diqqətini qarşıda duran bir sıra həlli vacib məsələlərə yönəldib, tapşırıq və tövsiyələrini verib, nöqsanların aradan qaldırılması yollarını göstərib.

***Bakı Şəhər Baş Polis İdarəsi***

# ŞƏXSİ HEYƏTİN HAZIRLIĞI YOXLANILDI

**Aprelin 18-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakı şəhərində yerləşən hərbi hissəsində nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun rəhbərliyi ilə keçirilən tədbirdə “Formula-1 Azərbaycan Qran Pri” yarışı zamanı digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb edilən hərbi qulluqçuların xidmətə hazırlığı, təminat-təchizat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb.**



Qeyd edilib ki, yarış zamanı xidməti-döyüş tapşırıqlarının və müəyyən edilmiş vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtında icrası təmin olunub. İlk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, müvafiq dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə baş idarəetmə mərkəzi yaradılıb. Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyatı üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının





yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub.

Hazırlıq mərhələsində həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması mövzuları üzrə xüsusi məşğələlər keçirilib, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Tədbirə hazırlıqların yoxlanılması məqsədilə xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən qadın hərbi qulluqçuların xüsusi geyim formalarına, hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələrilə təchizatına və nəqliyyat vasitələrinə baxış keçirilib.

Şəxsi heyətin hazırlığını qənaətbəxş qiymətləndirən general-leytenant Ş.Məmmədov “Formula-1 Azərbaycan Qran Pri” yarışı ilə bağlı qarşıya qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşılmasının, nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb. O, xidmətin aparılması ilə əlaqədar konkret tapşırıqları verərək, şəxsi heyətə bu məsuliyyətli işdə uğurlar arzulayıb, qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

***DQ-ın Mətbuat Xidməti***

# DÜNYANIN AZƏRBAYCAN GERÇƏKLİYİ

**Bu ilin ilk rübündə də ölkəmizin iqtisadiyyatı dinamik inkişafını davam etdirmişdir. Ayrı-ayrı sahələr üzrə nəticələr belədir:**

✦2019-cu ilin yanvar-mart aylarında ölkəmizdə 18 milyard 111,7 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox ümumi daxili məhsul istehsal edilib. ÜDM istehsalının 46 faizi sənayenin, 10,2 faizi ticarət, 6,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,5 faizi tikintinin, 2,8 faizi kənd və meşə təsərrüfatı, balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə, 16,4 faizi digər sahələrin payına düşüb.

✦Ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar, qeyri-neft sektorunun inkişafına təkan verib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 16,5 faiz artıb.

✦Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 15,6 faiz artıb. Sənaye məhsulunun 71,7 faizi mədənçıxarma, 22,9 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

✦İlin ilk 3 ayı sənaye istehsalında artım özünü göstərmişdir. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar-mart aylarında 11,5 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çox sənaye məhsulu istehsal edilib.

✦İlin ötən dövrü Azərbaycanın xarici ticarətinin artması baxımından da əlamətdardır. Bu dövrdə respublikamızın hüquqi və fiziki şəxsləri dünyanın 144 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 86 ölkəyə məhsul ixrac edilib, 138 ölkədən isə idxal olunub.

✦Ölkəmizdə əhalinin gəlirləri 5,5 faiz artıb.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*



# SÜRƏTLİ OL: QƏLƏBƏ ÜÇÜN...




**Bir çox mötəbər turnirlərə evsahibliyi edən paytaxt Bakı 4-cü dəfə "Formula-1 Azərbaycan Qran Pri" yarışına start verir. Dünyaca 3-cü dərəcəli əhəmiyyət kəsb edən "Formula-1 Azərbaycan Qran Pri"-sini Xəzər dənizinin fonunda, şərqlə-qərb mədəniyyətinin vəhdət təşkil etdiyi Bakımızda yerli sakinlərlə yanaşı, ölkəmizdə səyahətdə olan əcnəbilər də həyəcanla gözləyirlər.**

Yarış zamanı əsas məqamlardan biri idmançıların və izləyicilərin təhlükəsizliyidir ki, yüksək təşkilatçılıq qabiliyyəti ilə fərqlənən ölkəmiz bu sahədə də nümunə olmağı bacarır və bununla bağlı kifayət qədər təcrübəmiz var.

Aprel ayının 26-dan 28-dək pilotların şütüyəcəyi Bakı küçələrində təhlükəsizliyi yüksək səviyyədə təmin etmək məqsədilə daxili işlər orqanları tərəfindən bütün zəruri tədbirlər həyata keçirilib. Belə ki, ictimai qaydanın, eləcə də təhlükəsizliyin təmin olunmasına daxili işlər orqanlarının şəxsi heyəti səfərbər olunub. Həvalə olunmuş yaşayış və qeyri yaşayış obyektlərində, postlarda verilən tapşırıqlar müvəffəqiyyətlə icra olunur, baş vermiş qanun pozuntularının qarşısı qətiyyətlə alınır. Bundan başqa, şəhərdə avtomobillərin hərəkətində sıxlığın yaranmaması üçün adekvat tədbirlər görülüb. Həmçinin daxili işlər orqanlarının əməkdaşları yarışın marşurutu, tamaşaçılar üçün quraşdırılmış tribunaların, o cümlədən digər obyektlərin müayinəsini həyata keçirib, nəzarət-buraxılış məntəqələrinə giriş-çıxışı müəyyən edilmiş qaydalar çərçivəsində nəzarətə götürüblər.

Tədbir zamanı digər vacib məqam isə şəxsi heyətin mənəvi-psixoloji durumudur. Yarış dönəmində xidmətə cəlb olunan şəxsi heyətin mənəvi-psixoloji durumuna, fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirilir və bu daima nəzarətdə saxlanılır. Vətəndaşlarla, əcnəbi qonaqlarla ünsiyyətdə etik-davranış qaydalarına ciddi əməl olunur. Bir sözlə, DİO əməkdaşları nizam-intizamla yanaşı xidməti-döyüş fəaliyyətinin icrasında da yüksək peşəkarlıq nümayiş etdirirlər.

*Teymur Əlizadə, polis kapitanı*

# BDYPİ MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİR

**Baş Dövlət Yol Polisi İdarəsi sürücülər üçün maarifləndirici tədbirlərini davam etdirir. Dövlət Yol Polisinin stasionar postlarında BDYPİ-nin hazırladığı "Yol hərəkəti qaydaları uşaqların gözü ilə" mövzusunda rəsm bukletləri sürücülərə təqdim olunur.** Həmin bukletlər yol hərəkəti qaydalarına riayət olunması, sürət rejiminə nəzarət edilməsi, sürücülərin, eyni zamanda sərnişinlərin təhlükəsizlik kəmərindən istifadə etməsi və digər tövsiyyələrdən ibarətdir.

Xatırladırıq ki, DİN Baş Dövlət Yol Polisi İdarəsi aprelin 5-dən mayın 25-nə qədər "Yol hərəkəti qaydaları uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsi keçirir.

*C. Natiq*



**Gəncə Şəhər Baş Polis İdarəsinin baş təhqiqatçısı, polis mayoru Etibar Abbasov 1970-ci ildə Kəlbəcərdə anadan olub. Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, işgüzarlığı, xidmətə məsuliyyətli münasibəti ilə hörmət qazanıb. Vətəndaşların müraciətlərinə həssaslıqla, işinə məsuliyyətlə yanaşır.**

*Üzeyir Muradov*

# ELAN

2019-cu il may ayının 3-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Quba, Xaçmaz, Qusar, Şabran, Siyəzən və Xızı rayon polis orqanlarında vakant (42 ştat) olan Post-Patrul Xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı DİN-in Daxili Qoşunlarının Quba rayonunda yerləşən hərbi hissəsində sıra baxışı keçiriləcəkdir. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-92-54; (012)-590-93-45; (012)-590-92-37***

2019-cu il may ayının 7-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Şirvan, Sabirabad, Saatlı, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl, Hacıqabul, İmişli, Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı və Lerik şəhər, rayon polis orqanlarında vakant (169 ştat) olan Post-Patrul Xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı DİN-in Daxili Qoşunlarının Hacıqabul rayonunda yerləşən hərbi hissəsində sıra baxışı keçiriləcəkdir. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları:(012)-590-97-52; (012)-590-92-54; (012)-590-92-70; (012)-590-92-37***

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi**

# BİLİRDİNİZMİ?

❖İllərdir tarix dərslərində keçilən 100 illik müharibə, əslində, 116 il sürmüşdür.

❖Havay əlifbasında yalnız 12 hərf var.

❖Qədim misirlilər daşdan düzəldilmiş yastıqlarda yatırdılar.

❖Qitə adlarının hamısı eyni hərflə başlayıb, eyni hərflə bitir.

❖Bayquş mavi rəngi görə bilən yeganə quşdur.

❖Qarışqalar yatmırlar.

❖Cənubi Koreyanın paytaxtı Seul Koreya dilində elə "paytaxt" deməkdir.

❖Kasablanka adı ispanca "ağ ev" mənasını verir.

❖Küveyt ərəbcə "qorunmuş kənd (qala)" deməkdir.

❖Kosta-Rika ispanca "zəngin sahil" mənasını verir.

❖Haiti sözü yerli dildə "dağda yaşayanlar"dır.

❖Polşa "düzənliklər ölkəsi" mənasındadır.

*Aytən Tahirova, polis leytenantı*

Türkiyədə son 4 ayda mütəşəkkil cinayətkarlığa qarşı polis və jandarma tərəfindən 141 əməliyyat keçirilib. Ümumilikdə bu əməliyyatlar zamanı 1608 nəfər şübhəli şəxsdən 630-u həbs olunub.

Ötən il Türkiyənin hüquq-mühafizə orqanları tərəfindən mütəşəkkil cinayətkarlığa qarşı 332 əməliyyat keçirilib, 47-si beynəlxalq-regional, 250-si yerli olmaqla, 297 terror təşkilatı və cinayətkar qrup çökdürülüb, 4565 nəfər qanunsuz qruplaşma rəhbəri barəsində cinayət işi açılıb, onlardan 810-u yaxalanıb.

Türkiyə polisi və jandarması tərəfindən terror təşkilatlarına qarşı ötən il keçirilən əməliyyatların sayı 33 faiz artıb. 1 yanvar - 15 aprel 2019-cu il tarixlərində mütəşəkkil cinayətkarlığa qarşı keçirilən əməliyyatlar zamanı 183 tapança, 150 ov tüfəngi, 10340 ədəd fişəng ələ keçirilib.




*****

***"Gürcüstan yol-nəqliyyat hadisələrinin ölüm hallarının sayına görə regionda və Avropada liderdir".***

***Bu barədə daxili işlər naziri Giorgi Qaxaria bildirib. Onun sözlərinə görə, Gürcüstanda yalnız ötən il yol qəzalarında 459, son 10 ildə isə 6.608 nəfər ölüb, 85.946 nəfər xəsarət alıb: "Yol-nəqliyyat hadisələrinin əsas səbəbləri sürət artımı, əks istiqamətdə hərəkət, yol nişanlarının tələblərinə əməl etməmək və nəqliyyat vasitələrinin spirtli içkinin təsiri altında idarə olunması ilə bağlıdır".***

***Nazir qeyd edib ki, 2019-cu ilin sonuna qədər bütün ölkə ərazisində 5000 videokamera, həmçinin 2100 "ağıllı kamera" quraşdırılacaq.***

***Gürcüstanda yol-nəqliyyat hadisələrinin sayının azaldılması, avtomobili sərxoş və narkotik vasitələrin təsiri altında idarə edən sürücülərə qarşı mübarizə tədbirləri də gücləndiriləcək. Bu məqsədlə Gürcüstan Daxili İşlər Nazirliyi yeni layihə və metodlar hazırlayıb. Bu sözləri Giorgi Qaxaria nazirliyin təşəbbüsü ilə hazırlanmış "Daha çox həyat naminə" adlı kampaniyanın təqdimat mərasimində söyləyib.***

***Onun sözlərinə görə, DİN-in təşəbbüsü ilə Tbilisidə və bölgələrdə start verilən kampaniya çərçivəsində qəzalı avtomobillərdən ibarət instalyasiya və banerlər quraşdırılıb, müvafiq videoçarxlar hazırlanıb. Məqsəd insanları yol hərəkəti qaydalarını pozmağın ağır nəticələri ilə bir daha tanış etmək, onları qaydalara dəqiq riayət etməyə çağırmaqdır.***

*****

Fransa Daxili İşlər Nazirliyinin rəsmi məlumatlarına əsasən, bu il ölkədə polis və jandarmlar arasında intihar halları artıb. Belə ki, ilin əvvəlindən 35 polis və 33 jandarm intihara cəhd edib. Onlardan 28 nəfəri ölüb.

Ölkənin daxili işlər naziri Kristof Kastaner hadisədən sonra hüquq-mühafizə orqanlarında özünəqəsd hallarının qarşısının alınması məqsədilə təcili və təxirəsalınmaz tədbirlərə başlanıldığını bildirib.

*****

***Nyu-York ştatının Assambleyasında təqdim olunan yeni qanun layihəsinə görə, sürücülük vəsiqəsinə sahib olan hər kəs avtomatik olaraq orqan donoruna çevrilə bilər. Assambleyanın üzvü Pet Berkin hazırladığı sənədə əsasən, ştatın yaşı 18 və daha yuxarı olan bütün sakinləri donorların siyahısına daxil ediləcək.***

***Həmin siyahıya avtomatik daxil olunmaq istəməyənlər bundan imtina edə bilərlər. ABŞ-ın bütün ştatlarında sürücülük vəsiqəsi alan vətəndaşların donor kimi qeydiyyatdan keçmək imkanı var.***

*N.Cavadov*

# Aprelin 17-dan 23-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 128 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 75 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 123 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 8 nəfər, borclu şəxs qismində axtarışda olan 45 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 13 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 66 fakt müəyyən edilmişdir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Nəqliyyatda Baş Polis İdarəsinin rəis müavini Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti BİTİ-nin əməkdaşı Elçin Qubadova anası
**ELZA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti bölmə rəisi Elşad Məmmədova nənəsi
**KAFİYA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Komendant Xidmətinin əməkdaşı İlqar Bağırova əzizi
**MƏMMƏD ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal RPİ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Teymur Hacıyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Samux RPŞ-nin rəisi Akif Nəbiyev və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Pərviz İsmayılov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Məhəmməd Məmmədova qardaşı
**RAMİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30